Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 80 (1208) 28 aprel - 2 may 2016-cı il

# Şirvanın üzük qaşı

(əvvəli ötən saylarımızda)

**Şəhərin su təchizatının yaxşılaşdırılması və kanalizasiya sisteminin yenidən qurulması işlərinin daha da sürətləndirilməsi və bu sahədə yol verilən narazılıqların aradan qaldırılması məqsədilə həyata keçirilən operativ tədbirlər barədə məlumat verən A.Ağayev vurğulamışdır ki, rüb ərzində şəhərdaxili şəbəkə xətlərində 1600 p/m-ə yaxın müxtəlif diametrli su xətlərində təmir işləri aparılmışdır. Daxili kanalizasiya xətlərində 40 ədəd baxış quyusu təmizlənmiş, 1700 p/m müxtəlif diametrli kanalizasiya xətlərində təmir işləri aparılmışdır. Bundan əlavə rayonun Sabir qəsəbəsinin su təchizatının yaxşılaşdırılması məqsədilə yeni elektrik motoru və elektrik şiti yenisi ilə əvəz edilmişdir. Nanəli su xəttində təmir işləri aparılaraq stansiyada yeni nasos və elektrik motoru quraşdırılmışdır. Ötən rüb ərzində şəhərin küçələrinə kanalizasiya və su xətləri çəkilişi davam etdirilmişdir.**

> **"...Biz indi, əlbəttə ki, keçid dövrünü başa vurmuşuq. Azərbaycan bu gün tamamilə müasir əsaslar üzərində inkişaf edir - istər siyasi sahədə, istər iqtisadi sahədə, istərsə də sosial məsələlərin həllində. Ancaq biz bu sahədə, xüsusilə sosial məsələlərin həllində inkişaf etmiş ölkələrin təcrübəsinə, əlbəttə ki, baxmalıyıq. Bu təcrübədə həm müsbət, həm mənfi məqamlar vardır. Əlbəttə ki, biz müsbət məqamları seçməliyik və öz sosial siyasətimizi inkişaf etmiş ölkələrin meyarlarına yaxınlaşdırmalıyıq, ona uyğunlaşdırmalıyıq".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Onun sözlərinə görə, 2016-ci ilin ötən ayları ərzində rayonda həyata keçirilən məqsədyönlü tədbirlər, ən əsası bir çox sosial problemlərin uğurlu həlli nəticəsində rayonda ictimai-siyasi sabitlik davam etmişdir. Rayonda mütəmadi qaydada aparılan bu və ya digər tədbirlər öz müsbət təsirini göstərməkdədir: "2016-ci ilin birinci rübü ərzində rayonda böyük şəbəkəyə malik olan təhsil, səhiyyə və mədəniyyət sahələrində də həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bir çox işlər görülmüşdür. Cari ilin I rübündə də müəllimlərin ixtisasartırma və təkmilləşdirmə kurslarından keçmələri təmin olunmuş, 2 nəfər müəllim isə "Öyrədənlərin öyrədəni" kurslarından keçərək sertifikat almışdır. Şagirdlərimiz Təhsil və Fövqəladə Hallar Nazirliklərinin, eləcə də digər təşkilatların xətti ilə keçirilən müsabiqələrdə, "Şahin" hərbi-idman oyunlarında fəallıq göstərmişlər".

2016-cı ilin 3 ayı ərzində rayon əhalisinə göstərilən səhiyyə xidmətini yaxşılaşdırmaq məqsədilə bir sıra tədirlər hazırlanaraq həyata keçirilmişdir.

Ölkə başçısının tapşırığına uyğun olaraq son illərdə olduğu kimi bu il də 2016- cı ilin fevral ayının 15-dən başlayaraq rayon əhalisinin kütləvi dispanser müayinəsi həyata keçirilir. Bu günə qədər rayon əhalisindən müayinəyə 55916 nəfər cəlb edilmişdir. Aşkar olunan xəstələrdən 5210 nəfəri ambulator, 100 nəfəri isə stasionar müayinəyə cəlb olunmuş, 157 nəfər Bakı şəhərinin müxtəlif klinikalarına sonrakı müayinə və müalicəyə göndərilmişdir. Həmçinin 2016-cı ilin 3 ayı ərzində yeni şəxsiyyət vərəqəsi almaq üçün 4300 nəfər vətəndaş qan qrupu müayinəsindən keçmişdir.

Həkimlərin və orta tibb işçilərin tibbi və əmək fəaliyyətini yaxşılaşdırmaq, əhaliyə göstərilən xidmətin səviyyəsini yüksəltmək məqsədi ilə 2016 cü ilin 3 ayı ərzində 5 nəfər həkim və 3 nəfər orta tibb işçisi müxtəlif ixtisasartırma və təkmilləşdirmə kurslarında iştirak etmişdir".

Qeyd edək ki, 2016-cı ilin birinci rübü Şamaxıda bütün sahələrdə olduğu kimi, mədəniyyət və turizm sahəsində də uğurla başlamışdır. Dövlət başçısının mədəniyyət və turizm sahəsinə göstərdiyi diqqət və qayğı sayəsində bu sahələrdə mühüm naliyyətlər əldə olunmuşdur. Mədəni irsimizin mühafizəsi, mədəniyyətin inkişafı, insanların asudə vaxtının səmərəli təşkili, zəngin mədəniyyət və turizm potensialının təbliği və təşviqi, əhaliyə göstərilən mədəni xidmət işi daim diqqət mərkəzində saxlanılır: "Şamaxı rayonu Azərbaycanın turizm mərkəzlərindən birinə çevrilir. Hazırda rayonumuzda beş ulduzlu üç otel, 21 turist istirahət mərkəzi fəaliyyət göstərir. Şamaxıda yay və qış turizmi, kənd yaşıl turizmi, idman, dini turizm, astro turizm inkişaf edir. 2016-cı ilin birinci rübündə Şamaxıya 12254 nəfər turist gəlmişdir.



20 yanvar faciəsinin 26-cı ildönümü ilə əlaqədar şəhərin Şəhidlər xiyabanında ümumrayon anım mərasimi keçirilmiş, məktəblilər "20 yanvar uşaqların gözü ilə" mövzusunda ədəbi-bədii kompozisiya təqdim etmişlər. Xalqımızın tarixinə qanla yazılmış əsrin ən böyük faciəsi Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar fevralın 26-da faciə qurbanlarının xatirəsinə həsr olunmuş anım tədbiri keçirilmişdir. Həmçinin "8 mart Beynəlxalq qadınlar günü" münasibəti ilə tədbir keçirilmişdir. 18-mart tarixində Heydər Əliyev Parkında Novruz bayramı münasibəti ilə ümumrayon tədbiri keçirilmişdir. Tədbirdə dekarativ sənət nümünələri, yerli kulinarların, milli mətbəx ustalarının əl işləri, rəsm sərgiləri hər bir kəndin özünə məxsus adət- ənənələri, xalq sənətkarlıq nümunələri və s. nümayiş etdirilmişdir. Rayonun kənd və qəsəbələrində Novruz bayramı münasibətilə bayram şənliyi təşkil olunmuşdur.

Martın 19-da İçəri şəhərdə Dənizkənarı Milli Parkda Azərbaycanın qeyri maddi mədəni irsinin ən parlaq nümunəsi olan Novruza həsr olunmuş ümumxalq bayram şənliklərində qədim Şamaxını təmsil edən xalq sənətkarları, kulinarlar, mətbəx ustaları, fermerlər yüksək səviyyədə çıxış etmişlər.

**Burada onu da qeyd etmək lazımdır ki, Şamaxıda insanların sosial yardım, təhsil, səhiyyə, mədəniyyət sahəsində əldə etdikləri nailiyyətlər və bu sahələrə göstərilən diqqət və qayğı da rayon icra hakimiyyəti başçısı Asif Ağayevin və onun Aparatının daim diqqət mərkəzindədir. Çünki rayon rəhbərliyi bugünkü iqtidarın, xüsusilə Azərbaycan prezidenti İlham Əliyev cənablarının məqsədini, tələblərini kifayət qədər dəqiq bilir və onu Şamaxıda gerçəkləşdirirlər.**

***Şamxal ŞƏBİYEV***




AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ